29 (1335) 25-31 iyul 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “BİZ CƏNUBİ QAFQAZ REGİONUNDA TARİXİ TRANSFORMASİYANIN ŞAHİDİYİK”




“Cənubi Qafqaz regionuna gəldikdə, deyə bilərəm ki, biz tarixi transformasiyanın şahidiyik, tarixi-geosiyasi dəyişikliklər baş verir”.
Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 20-də “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında deyib.
*“Ənənəvi ittifaqlar bir qədər zəifləyib və yeni əməkdaşlıq formatları meydana gəlib. Əlbəttə, ötən ilin sentyabrında ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ən mühüm hadisədir. Bu, təkcə birinci və ikinci Forum arasında deyil, ümumiyyətlə müasir tariximizdə mühüm hadisə oldu”*, - deyə dövlətimizin başçısı bildirib.

## “RUSİYA İLƏ İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRDƏ HƏLL OLUNA BİLMƏYƏN MƏSƏLƏ MÖVCUD DEYİL”

“İkitərəfli münasibətlərdə (Rusiya ilə - red.) həll oluna bilməyən məsələ mövcud deyil və uzun müddətdir ki, belədir. Hətta müttəfiqliyi qarşılıqlı fəaliyyəti haqqında bəyannamə imzalanandan əvvəl də belə idi”.
Bu fikirləri Prezident İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında səsləndirib.
*“Biz qarşılıqlı hörmət, qarşılıqlı anlayış, qarşılıqlı maraqların gözlənilməsi və uzun əsrlər boyu xalqlarımız arasında əlaqələrə əsaslanaraq bu münasibətləri formalaşdırırıq. Doğrudan da son dövrlərdə yüksək səviyyəli görüşlərin intensivliyi artıb, buna böyük ehtiyac var. Biz apreldə Moskvada, bu ayın əvvəlində Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində görüşmüşük (Rusiya Prezidenti Vladimir Putinlə – red.) və güman ki, ilin sonuna qədər yenə görüşlər olacaq, mövzular çox genişdir”*, - deyə dövlətimizin başçısı əlavə edib.

## “REGİON ÖLKƏLƏRİ İLƏ SIX ƏLAQƏLƏR BİZƏ İMKAN VERDİ Kİ, İQTİSADİ PROBLEMLƏRİN BÖYÜK ƏKSƏRİYYƏTİNİ HƏLL EDƏK”

“Biz de-fakto və de-yure olaraq müstəqilliyi seçdik - müstəqil xarici siyasət, özünü təmin edən iqtisadiyyat, bizimlə əməkdaşlığa can atan tərəfdaşlarımızla səmərəli əməkdaşlıq. Əlbəttə ki, biz daxili potensialımıza söykənirdik”.
Bu barədə Prezident İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında bildirib.
Dövlətimizin başçısı, həmçinin qeyd edib: *“Eyni zamanda, biz region ölkələri ilə də sıx əlaqələri təmin etdik. Bu, bizə imkan verdi ki, biz iqtisadi problemlərin böyük əksəriyyətini həll edək. Biz öz üzərimizdə çalışdıq, diqqətimizi xalqımıza, ölkəmizə yönəltdik, dedi-qodulara, Avropa Parlamentində və ya Avropa Şurasında hansısa bəyanatlara fikir vermədik”.*



## “BİZİM COP HEYƏTİMİZ ÇOX SƏMƏRƏLİ İŞLƏYİR”

“Qazıntı yanacaq növlərindən əldə etdiyimiz gəlirlərin ədalətli paylanılması çox şəffaf, məsuliyyətli şəkildə həyata keçirilir. Deyə bilərəm ki, vaxt keçdikcə bizə qarşı hücumların (COP29-la bağlı – red.) sayı azalır”.
Bu sözləri Prezident İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında söyləyib.
*“Bizim COP heyətimiz çox səmərəli işləyir və vaxtının böyük hissəsini xaricdə keçirir, müxtəlif görüşlər keçirir”*, - deyən dövlətimizin başçısı əlavə edib ki, ölkəmizin COP-la bağlı gündəliyi proqnozlaşdırılabilən, aydın və hədəflərə, məqsədlərə və nəticələrə köklənmiş bir gündəlikdir.

## “BİZ QLOBAL CƏNUBLA QLOBAL ŞİMAL ARASINDA KÖRPÜLƏR QURURUQ”

“Bu tədbir (COP – red.) qlobal miqyasda ən mühüm hadisələrdən biridir. Bu, dünyada bir nömrəli konfransdır”.
Bu sözləri Prezident İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında deyib.
Tədbirin postsovet məkanında ilk dəfə keçirildiyini bildirən dövlətimizin başçısı qeyd edib: *“Bu, misilsiz bir şansdır ki, biz ən yüksək liqaya daxil oluruq. Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik, Qlobal Cənubla Qlobal Şimal arasında körpülər qururuq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatının sədrliyini etmişik”.*



## “ERMƏNİSTANLA NORMALLAŞMA PROSESİNDƏ İRƏLİLƏYİŞ BAŞ VERİR”

“Sülh sazişinə gəldikdə, mənə xarici işlər naziri tərəfindən verilən məlumata görə, mətnin 80-90 faizi razılaşdırılıb. Ermənistan həmin o müddəanı və terminologiyanı (Qarabağla bağlı – red.) oradan götürməyə razı oldu və beləliklə, normallaşma prosesində irəliləyiş baş verir”.
Bu fikirləri Prezident İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında səsləndirib.
Amma burada hazırda iki məsələnin açıq qaldığını vurğulayan dövlətimizin başçısı qeyd edib: *“Onlardan biri odur ki, Ermənistan bizim təkliflərə müsbət cavab verməlidir. İkincisi, həm Ermənistan, həm Azərbaycan birgə ATƏT-ə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Çünki bu qrup artıq uzun müddətdir fəaliyyətsizdir”.*

## PREZİDENT İLHAM ƏLİYEV QLOBAL MEDIA FORUMUNDA PAŞİNYANIN BRİTANİYADA ONUNLA GÖRÜŞDƏN İMTİNA ETMƏSİ BARƏDƏ DANIŞIB

Azərbaycan Prezidenti İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında Britaniyada Ermənistanın baş naziri Nikol Paşinyanla planlaşdırılan, lakin erməni baş nazirin imtina etdiyi görüş barədə danışıb.
Sülh sazişinin mətni üzərində danışıqların davam etdiyini, lakin bu gün bununla bağlı daha az nikbin olduğunu vurğulayan dövlətimizin başçısı baş nazir Paşinyanın onunla Britaniyada görüşməkdən imtina etdiyini xatırladıb. Deyib ki, bu görüş Britaniya hökumətinin təşəbbüsü, təklifi idi. Lakin Ermənistan tərəfi bu təklifi rədd etdi. Biz buna çox təəccübləndik.
Dörd ay əvvəl Almaniya Kansleri Şoltsun Münxendə bənzər görüş təşkil etdiyini söyləyən Azərbaycan Prezidenti bildirib: *“Britaniya hökuməti eyni təklifi verdi ki, Britaniyanın Baş naziri iştirak edəcək, sonra görüşdən çıxacaq. Baş nazir Paşinyan bundan imtina etdi. Yəni, o, mənimlə danışmaq istəmirsə, hansı sülh sazişindən söhbət gedə bilər? O, Britaniyanın Baş naziri ilə danışmaq istəmirsə, o, Londona və Oksfordşirə niyə səfər edirdi? Yəni, bir çox məsələlərdə çox ciddi ziddiyyət var. Ancaq biz baxacağıq”.*

## “BİZİM ABŞ-LA MÜNASİBƏTLƏRİMİZ DEMƏK OLAR HƏR ZAMAN SABİT OLUB”

“Azərbaycan-ABŞ əlaqələri haqqında danışdıqda bizim əlbəttə ki, Respublikaçılar hakimiyyəti ilə əlaqələrimiz nəzərəçarpacaq dərəcədə uğurlu və nəticəyönümlü olub”.
Bu barədə Prezident İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında bildirib.
*“Eyni zamanda, Prezident Trampın dövründə bizim çox səmərəli əməkdaşlığımız olub. Onlar qarşılıqlı hörmət üzərində qurulmuşdur və qarşılıqlı dəstəyin yüksək qiymətləndirilməsindən ibarət idi”*, - deyən dövlətimizin başçısı vurğulayıb ki, bizim ABŞ-la münasibətlərimiz demək olar hər zaman sabit olub. Qeyd edib ki, müəyyən enişli-yoxuşlu dövrlər olub, o da bizim günahımız deyildi. Çünki onlar bizim siyasi həyatımıza müdaxilə etməyə çalışırdılar, onlar siyasi müxalifəti maliyyələşdirmək cəhdləri ediblər.

## “ƏMİNƏM Kİ, TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ ÇOX BÖYÜK GƏLƏCƏYİ VAR”

“Türk Dövlətləri Təşkilatının gələcək inkişafına dair mənim baxışlarım tamamilə aydındır. Əminəm ki, bu təşkilatın çox böyük gələcəyi var”.
Bu sözləri Prezident İlham Əliyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında deyib.
Təşkilatı daha da yüksək səviyyəyə qaldırmaq üçün ortaq səylərin lazım olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: ***“Biz birliyi daha da gücləndirməklə Türk Dövlətləri Təşkilatını dünya çapında güc mərkəzinə çevirməliyik. Bu gün bir neçə beynəlxalq təşkilat var, bəziləri böhran içində, bəziləri tənəzzüldə, Türk Dövlətləri Təşkilatı isə yüksəlişdə”.***

## "BRİTANİYADA BÜTÜN LİDERLƏR MƏNƏ ERMƏNİSTAN, SÜLH SAZİŞİ HAQQINDA SUALLAR VERİRDİLƏR"



"Bir neçə gün əvvəl Britaniyada, Oksfordşirdə bütün liderlər mənə Ermənistan haqqında, sülh sazişi haqqında suallar verirdilər. Sanki Avropada bütün məsələlər həll edilib və Ermənistan-Azərbaycan məsələsi yerdə qalan yeganə problemdir".

Bu sözləri Prezident İlham Əliyev "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında söyləyib.

Onların bütün söhbətlərdə bu məsələni qaldırmaqlarından təəccübləndiyini bildirən dövlətimizin başçısı deyib: ***"Mən heç vaxt Avropa və ya digər liderlərlə danışığımda bizə və ya mənə şəxsən aid olmayan heç bir məsələni müzakirə etmirəm. Mən bu görüşlərdə onlara izah etməyə çalışırdım ki, bizim etdiyimiz sizin dəstəklədiyiniz tərəfin hərəkətlərindən heç nə ilə fərqlənmir. Fərq ondan ibarətdir ki, bütün milyardlarına rəğmən, onlar uğursuz oldular, biz isə bunu bacardıq. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini geri qaytardıq".***

# Qazaxıstan COP29-un fəaliyyətində aktiv iştirak edəcək

Bu barədə Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel səfirliyin binasında təşkil olunan Azərbaycan-Qazaxıstan turizm forumunda deyib.

***"Qazaxıstan və Azərbaycan strateji tərəfdaş və müttəfiqlərdir. Dövlətlərimizin başçıları arasında siyasi dialoq bunun təminatıdır. Prezidentlər tez-tez görüşlər keçirir və qarşılıqlı səfərlər edirlər. Payızda Bakıda böyük COP29 tədbiri keçiriləcək.***



***Qazaxıstan bu konfransda aktiv iştirak edəcək"***, - deyə o vurğulayıb. Qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bu ilin noyabrında Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. İki həftə ərzində Bakı dünyanın mərkəzinə çevriləcək və 70-80 minə yaxın xarici qonağı qəbul edəcək.

## COP29 Azərbaycanın alternativ enerji sahəsində liderliyini nümayiş etdirmək üçün fürsətdir

2024-cü ilin noyabrından Azərbaycanda keçiriləcək COP29 ölkənin bərpa olunan enerji və iqlim dəyişikliyi ilə mübarizə sahəsində liderliyini nümayiş etdirmək üçün fürsətdir.

Bu barədə ABŞ Dövlət Departamentinin Azərbaycanda investisiya mühitinə dair hesabatında deyilir.

Materialda qeyd olunub ki, Azərbaycan həm quruda, həm də dənizdə külək və günəş enerjisinin inkişafı üçün böyük potensiala malikdir.

"Azərbaycan hökuməti 2030-cu ilədək elektrik enerjisi istehsalının ümumi quraşdırılmış gücündə bərpa olunan enerji mənbələrinin payının 30 faiz olmasını qarşısına məqsəd qoyub. Əsas diqqət günəş, külək və su elektrik stansiyalarına yönəlib, layihələrin həyata keçirilməsində xarici investorlar həlledici rol oynayır. 2023-cü ilin oktyabrında Azərbaycanda 230 meqavatt gücündə günəş elektrik stansiyası işə salınıb. Ölkə Xəzər dənizindən Avropaya "yaşıl" enerji dəhlizinin yaradılması üzərində fəal iş görür. Bərpa olunan enerji sektorunda rəqabət müsbət dəyişikliklərə, o cümlədən artan investisiya, innovasiya və sosial-iqtisadi faydaların artmasına imkan yarada bilər", - hesabatda deyilir.

Ənənəvi enerjiyə gəlincə, Dövlət Departamentindən bildiriblər ki, 2022-ci ilin iyununda Azərbaycan və Avropa Komissiyası 2027-ci ilə qədər Azərbaycan qazının Avropaya ixracını iki dəfə artırmaq üçün anlaşma memorandumu imzalayıb.

***"2027-ci ilə qədər Azərbaycan Trans-Adriatik Boru Kəməri (TAP) ilə qaz nəqlini ildə 20 milyard kubmetrədək artırmağı planlaşdırır. 2023-cü ildə Azərbaycan Avropaya 11,8 milyard kubmetr qaz tədarük edib. Azərbaycan qazının demək olar ki, yarısını Avropa alır"***, - hesabatda deyilir.

# İstilik enerjisi təchizatı ilə bağlı iclas keçirilib

İyulun 22-də Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində istilik enerjisi təchizatı sahəsində 2024-2025-ci il payız-qış mövsümünə hazırlıq məsələləri, istilik təchizatını təmin edən qazanxana və istilik məntəqələrinin istismara hazırlıq vəziyyəti, habelə istilik xidmətlərinin göstərilməsində "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi və qarşısında duran vəzifələr və digər məsələlər ətraflı müzakirə olunub. Bu barədə Nazirlər Kabineti məlumat yayıb.

Bildirilib ki, iclasda Energetika Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Bakı Şəhər İcra Hakimiyyətinin, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin və "Azəriqaz" İstehsalat Birliyinin səlahiyyətli nümayəndələri iştirak edib, məruzələr dinlənilib.

İclasın yekununda müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunaraq, aidiyyəti qurumlara istilik xidmətlərinin keyfiyyətinin artırılması, istilik təsərrüfatı avadanlıqlarının tam işlək vəziyyətə gətirilməsi, istilik təchizatında fasilələrin yaranmaması, həmçinin digər təcili və təxirəsalınmaz addımlarla bağlı müvafiq tapşırıqlar verilib.

# Bank sektorunun aktivləri artıb

Bu ilin iyun ayının sonuna Azərbaycanda fəaliyyətdə olan bankların cəmi aktivləri 50,328.1 mln. manat, cəmi öhdəlikləri 44,086.3 mln. manat, balans kapitalı 6,241.8 mln. manat olub

İyun ayında bank sektorunun cəmi aktivləri və cəmi öhdəlikləri müvafiq olaraq 2,4% və 3% artıb, balans kapitalı isə 1,4% azalıb. Balans kapitalının azalması dividend ödənişləri ilə bağlı olub.

Bu dövrdə bankların kredit portfeli 1,1% və ya 271,3 mln. manat artaraq 25,429.5 mln. manat olub. Kredit portfelinin strukturu: ı) biznes kreditləri – 54,6% (13,874.8 mln. manat); ıı) istehlak kreditləri – 30% (7,633.8 mln. manat) və ııı) ipoteka kreditləri – 15,4% (3,920.8 mln. manat).

Cəmi kredit portfelində (BOKT-lər və kredit ittifaqları daxil olmaqla) vaxtı keçmiş kreditlərin payı əvvəlki ilin müvafiq dövrünə nəzərən 0,6 faiz bəndi azalaraq 1,7% təşkil edib.

Bankların öhdəliklərinin strukturunda ənənəvi olaraq depozit portfeli üstünlük təşkil edir – cəmi öhdəliklərin 79,8%-i və ya 35,185 mln. manat.

Fiziki şəxslərin əmanətlərinin dollarlaşması iyun ayında əvvəlki ilin müvafiq dövrünə nəzərən isə 2,6 faiz bəndi azalaraq 33,9% təşkil edib.

Altı ayda banklar tərəfindən 614 mln. manat xalis mənfəət, 875,5 mln. manat məbləğində əməliyyat mənfəəti generasiya edilib. Cari ilin 6 ayında banklar tərəfindən ümumilikdə 124,1 mln. manat məbləğində mənfəət vergisi ödənilib.

## "YAŞIL ENERJİ İLƏ BAĞLI BİR ÇOX MƏQAMLAR İNSANLARI VƏ QƏRAR QƏBUL EDƏNLƏRİ DÜŞÜNMƏYƏ VADAR EDİR"

"Bu gün qaz faktoru enerji təhlükəsizliyinin bir nömrəli faktorudur". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda deyib. ***"Mən istisna etmirəm, bəlkə də gün gələcək, bizə yaşıl enerjini də irad tutacaqlar. Çünki yaşıl enerji ilə bağlı indi üzə çıxan bir çox məqamlar var ki, insanları və qərar qəbul edənləri düşünməyə vadar edir. Yəni, o məmulatların utilizasiyası necə olacaq? Batareyaların, akkumulyatorların taleyi necə olacaq? Yəni, indidən artıq bunun altına da bir mina qoyurlar ki, lazım olan vaxtda kiminsə başında çatlasın"***, - deyə dövlətimizin başçısı vurğulayıb.

## "AZƏRBAYCAN QAZININ AVROPAYA NƏQLİNİ İKİ DƏFƏ ARTIRMAQ BİZİM HƏDƏFİMİZDİR"

"Azərbaycan qazının Avropaya nəqlini iki dəfə artırmaq bizim hədəfimizdir və biz bu istiqamətdə irəliləyirik".

Bu sözləri Prezident İlham Əliyev "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda çıxışında söyləyib. ***"2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qaz nəql edirdik. Bu il təkcə Avropaya 13 milyard kubmetrə yaxın təbii qaz nəql ediləcək. Ümumi həcm isə 25 milyard kubmetr olacaq. 2027-ci ilin sonuna qədər biz Avropaya ixracı 16 milyard kubmetrə çatdırmalıyıq. Bu resursların Avropaya mövcud nəqliyyat şəbəkəsi - Cənub Qaz Dəhlizi, həm də onun interkonnektorları vasitəsilə çatdırılması planlaşdırılır"***, - deyə dövlətimizin başçısı əlavə edib.

## "BİZ YALNIZ AVROPAYA 2027-Cİ İLƏ QƏDƏR İLDƏ 20 MLRD. KUBMETR QAZLA TƏCHİZ ETMƏK ÜZRƏ ÖZ ÖHDƏLİYİMİZİ YERİNƏ YETİRMƏK ÜÇÜN ƏLİMİZDƏN GƏLƏNİ ETMƏYƏ ÇALIŞIRIQ"

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Oksfordda "Avropa Siyasi Birliyi"nin 4-cü Zirvə toplantısı çərçivəsində "Enerji və bağlantı" mövzusunda dəyirmi masada deyib.




O, bildirib: ***"Avropa Komissiyası Azərbaycanı enerji üzrə etibarlı tərəfdaş və ümum-Avropa qaz təchizatçısı adlandırmışdır. Bu, bizim hədəfimizdir. Bizim resurslarımız və infrastrukturumuz var. Yeni tərəfdaşlarla, əsasən Sloveniya və Slovakiya ilə danışıqlar prosesini sürətləndirməliyik, həmçinin mövcud bazarlara qaz təchizatımızın artırılması üzərində çalışmalıyıq. Çünki bizim İtaliyaya təchizatımız 9 milyard kubmetrdirsə, İtaliyaya bizdən 20 milyard kubmetr qaz lazımdır. Bizim enerji layihələrinə gəlincə, Azərbaycan etibarlı təchizatçı olub. Demək olar ki, 20 il ərzində biz tarixdə ilk dəfə olaraq Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən kəmər təşəbbüsü ilə çıxış etdik və qonşularımızla birlikdə onu istismara verdik. İndi biz Aralıq dənizində Türkiyənin Ceyhan limanından neftimizi müxtəlif təyinat nöqtələrinə, o cümlədən Azərbaycanın xam neftindən əhəmiyyətli dərəcədə asılı olan çox həssas nöqtələrə nəql edirik. Bəzi ölkələrdə Azərbaycan xam neftinin istehlakı onların tələbatının 50 və ya daha çox faizini təşkil edir. Üç ildən artıqdır ki, biz mühüm qaz təchizatçısına çevrilmişik. Bizim qaz kəmərimiz - Cənub Qaz Dəhlizi 2020-ci il dekabrın 31-də istismara verilib. Bundan əvvəl bizim tərəfdaşlarımız yalnız Gürcüstan və Türkiyə idi. Beləliklə, qismən Adriatik dənizinin dibi ilə uzanan 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi - Cənub Qaz Dəhlizi istismara verildikdən sonra biz dərhal Avropaya təchizata başladıq".***

# Azərbaycanda enerji anbarının yaradılması prosesi 2024-cü ildə başlaya bilər

"Azərbaycan 2027-ci ilədək mərhələli şəkildə "yaşıl" enerji üçün 250 meqavatt gücündə anbar hazırlamağı planlaşdırır".

Bunu Azərbaycan Respublikası energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov Şuşada keçirilən II Qlobal Media Forumu çərçivəsində "Yaşıl dünya naminə həmrəylik - COP29" mövzusunda təqdimat zamanı deyib.

***"2027-ci ilə qədər bərpa olunan enerji mənbələrindən (BEM) 2 qiqavatt "yaşıl" enerji istehsal etməyi planlaşdırırıq. Bu həcm üçün Azərbaycana 250 meqavatlıq enerji anbarı lazımdır. Bu anbarı 2024-cü ildən başlayaraq mərhələli şəkildə yaradacağıq"***, - o deyib.

Nazir müavini qeyd edib ki, 2024-cü ildə Azərbaycan xarici tərəfdaşların dəstəyi ilə ilk 50 meqavatt "yaşıl" enerjini saxlamaq üçün şərait yaratmağı planlaşdırır.

***"Yerdə qalan 200 meqavattın yaradılmasının təfərrüatı sonra, lazım olduqca açıqlanacaq"***, - deyə o əlavə edib.

## Valyutanın transsərhəd daşınması zamanı hərəkətinin dayandırılmasına dair qaydalar dəyişdi

Nazirlər Kabineti "Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar"da dəyişiklik edib.



Trend-in xəbərinə görə, indiyə qədər gömrük orqanları fakt üzrə inzibati araşdırmanın və ya cinayət təqibinin aparılması zamanı valyuta sərvətləri və milli valyutanın maddi sübut qismində götürülməsi halları istisna olmaqla onların bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi hallarında valyuta sərvətləri və milli valyutanın hərəkətinin 48 saat müddətində dayandırılmasına dair protokol tərtib edib və bu barədə gömrük orqanının rəhbəri tərəfindən əsaslandırılmış qərar qəbul edilib.

Dəyişikliyə əsasən, gömrük orqanları qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş valyuta sərvətləri və milli valyutanın bəyan edilməsi rejiminin tələbləri çərçivəsində bəyan edilməmiş və ya düzgün bəyan edilməmiş valyuta sərvətləri və milli valyutanın aşkar edilməsi hallarında valyuta sərvətləri və milli valyutanın hərəkətinin 48 saat müddətində dayandırılmasına dair protokol tərtib edib və bu barədə gömrük orqanının rəhbəri tərəfindən əsaslandırılmış qərar qəbul edilib.

# Auditin səmərəliliyi, rolu və əhəmiyyətinə dair sosioloji sorğu

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yeni dövrün çağırışları nəzərə alınmaqla ölkəmizdə uğurla həyata keçirilən məqsədyönlü iqtisadi islahatların və bu sahədə reallaşdırılan siyasətə yaxından dəstək olmaq məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası auditor xidməti bazarında sosial iqtisadi islahatların mühim amillərindən biri olan şəffaflığın təmin edilməsi, haqsız rəqabətin və dempinq hallarının aradan qaldırılması, auditorların biliklərinin və peşəkarlıq səviyyəsinin artırılması, auditin təşkili, tənzimlənməsi və rəqəmsallaşdırılmasının müasir tələblərə uyğun olaraq beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, auditdə innovasiyaların və yeni texnologiyaların tətbiqi, aparılan auditlərin Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və digər normativ-hüquqi sənədlərin tələblərinin uyğunluğuna nail olmaqla auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi və auditə ictimai etimadın gücləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirir və həmin neqativ hallara qarşı mübarizəni qanunvericilik çərçivəsində davam etdirir.

Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər) XI. "Auditdə şəffaflığın artırılması, haqsız rəqabət və dempinqə qarşı mübarizə" bölməsinin 5-ci "Sorğuların keçirilməsi və onların nəticələrinin maraqlı tərəflərlə birlikdə müzakirə edilməsi", XII. "Auditin təşkili" bölməsinin 1-ci "Auditor xidməti istifadəçiləri arasında ictimai maraq və peşəkar məsələlər ətrafında geniş məlumatlandırma və dialoqun aparılması" bəndlərində nəzərdə tutulan tədbirlərin, Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə İş Planının 10.8-ci "Auditorlar Palatası tərəfindən 2024-cü il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması" bəndinin və Palata sədrinin "Sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə" 2024-cü il 13 fevral tarixli 1/9 nömrəli sərəncamının icrasını təmin etmək məqsədilə Palatanın sədri tərəfindən 14 mart tarixində təsdiq edilmiş plan-proqrama uyğun olaraq 2024-cü ilin may-iyun aylarında auditor xidmətinin istifadəçiləri və ictimaiyyət arasında auditin səmərəliliyi, rolu və əhəmiyyətinə dair onlayn qaydada sosioloji sorğu keçirilmişdir.

Həmin sorğunun keçirilməsində əsas məqsəd Auditorlar Palatası tərəfindən yuxarıda qeyd olunan sahələr, o cümlədən göstərilən auditor xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, auditorların biliklərinin və peşəkarlıq səviyyəsinin artırılması, auditə ictimai etimadın gücləndirilməsi istiqamətində auditin təşviqi və maarifləndirilməsi, audit zamanı aşkar edilən nöqsan və çatışmazlıqların əsaslandırılması, auditin nəticəsinə dair auditorun tövsiyələrinin tətbiqi və digər məsələlər üzrə görülən işlərə və həyata keçirilən tədbirlərə dair auditor xidməti sifarişçilərinin və ictimaiyyətin münasibətini və fikirlərini öyrənmək, həmçinin mövcud problemlərin həll edilməsinə dair onlar tərəfindən verilən təklif və tövsiyələrin tətbiqinin reallaşdırılmasından ibarətdir.

**Təsdiq edilmiş plan-proqrama uyğun olaraq hazırlanmış sorğunun aşağıdakı 13 ədəd sualları və auditor xidmətinin istifadəçilərinə müraciət məktubu 2024-cü ilin 1 may tarixindən 7 may tarixinədək 3952 auditor xidmətinin istifadəçilərinin e-mail ünvanlarına göndərilmiş, eyni zamanda elan Auditorlar Palatasının internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir:**

***1. Müəssisənizdə aparılan auditin səviyyəsi sizi qane edirmi?***

***2. Müəssisənizdə audit aparan auditorların peşə-ixtisas səviyyəsi sizi qane edirmi?***

***3. Müəssisəniz üçün auditor seçimi edərkən hansı amilləri əsas götürürsünüz?***

***4. Korporativ saxtakarlığın və dələduzluğun aşkar edilməsi sahəsində auditorların bacarıqları sizi qane edirmi?***



**Qəşəm Bayramov, Azərbaycan Respublikası Auditorlar Palatası Aparatının rəhbəri**

***5. Auditin təşviqi və maarifləndirmə sahəsində Auditorlar Palatasının gördüyü işləri yetərli hesab edirsinizmi?***

***6. Audit Komitəsi (əgər müəssisənizdə Audit Komitəsi varsa) ilə auditorların iş birliyi sizi qane edirmi?***

***7. Auditorların keçirdiyi auditor yoxlamaları auditdən gözləntilərinizi tam əks etdirirmi?***

***8. Audit zamanı müəssisənizdə nöqsan və çatışmazlıqlar aşkar edilibmi?***

***9. Auditorun aşkar etdiyi nöqsanlar əsaslıdırmı?***

***10. Aşağıdakı sahələrdən hansında auditorların daha çox iş görməsini istərdiniz?***

***11. Aparılan auditə dair narazılıq və şikayətiniz olubmu? Əgər olubsa, Auditorlar Palatası tərəfindən müraciətinizə cavab sizi qane edibmi?***

***12. Auditin nəticəsinə dair auditorun tövsiyələri və tələbləri sizi qane edirmi?***

***13. Digər təklif və tövsiyələriniz.***

Aparılmış sorğunun 2024-cü il 13 iyun tarixli təhlili ilə müəyyən edilmişdir ki, sorğuya daxil olan respondentlərin sayı 660 nəfər olmuşdur.

**Sorğunun nəticələri 2024-cü ilin 20 iyun tarixində məsul icraçıların iştirakı ilə müzakirə edilmiş və təhlil nəticəsində müəyyən edilmişdir ki, auditor xidmətinin istifadəçiləri tərəfindən aşağıdakı təklif və tövsiyələr verilmişdir:**

***1.Müəssisələrdə aparılan audit nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılmasında və problemlərin qanunvericiliyin və Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq həll edilməsində onlara köməklik göstərilməsi;***

***2."Beynəlxalq Mühasibat Uçotu Standartlarının (BMUS) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) tətbiqi üzrə əlaqəli auditior xidmətlərinin genişləndirilməsi;***

***3.Korporativ saxtakarlığın və dələduzluğun aşkar edilməsi sahəsində auditorların bacarıqlarının artırılması məqsədilə seminarın keçirilməsi;***

***4.Auditorların Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələblərinə düzgün riayət edilməsinə dair seminarın keçirilməsi;***

***5.Auditin keyfiyyətinə kənar nəzarət üzrə monitorinqin nəticəsinə dair verilən qiymətlərin Palatanın internet səhifəsində mütəmadi olaraq yenilənməsinin həyata keçirilməsi;***

***6.Auditorlar Palatası tərəfindən auditorlar üzərində aşağıdakı sahələr üzrə əməli nəzarətin gücləndirilməsi:***

*- Auditin keyfiyyətinə kənar nəzarət;*

*- Haqsız rəqabətə qarşı mübarizə;*

*- Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalar;*

*- Audit sistemində icra intizamı və daxili nəzarət;*

*- Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə;*

*- İxtisasartırma kurslarında və digər maarifləndirici tədbirlərdə davamiyyət.*

***7.Məcburi auditdən yayınmaya görə cərimə məbləğinin artırılması barədə qanun layihəsinin hazırlanması, qurumlara təqdim edilməsi və onlarla razılaşdırılması;***

***8.Auditorların audit zamanı aşkar etdiyi nöqsanların əsaslandırılması və auditor xidmətinin istifadəçilərinin auditdən gözləntilərinin artırılması məqsədilə seminarın keçirilməsi;***

***9.Auditorlar Palatasının struktur bölmələri tərəfindən vətəndaşlardan daxil olan ərizə və şikayətlərə vaxtında və şəffaf baxılmasının təmin edilməsi;***

***10.Auditorların peşə-ixtisas səviyyəsinin artırılması məqsədilə auditorların ixtisasartırma kurslarının proqramına aşağıdakı mövzuların daxil edilməsi:***

*- Qeyri-maliyyə hesabatlarının tərtibi;*

*- Şirkətin strategiyasının hazırlanması;*

*- İdarəetmə məsələlərinin müzakirə edilməsi;*

*- Maliyyə-təsərrüfat fəaliyyətinin təhlili;*

*-Daxili auditin həyata keçirilməsi, daxili nəzarət sisteminin və investisiya layihələrinin qiymətləndirilməsi;*

*- Əməliyyat risklərinin qiymətləndirilməsi.*

***11. Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün ixtisasartırma kurslarının proqramının təkmilləşdirilməsi (auditin mahiyyəti, məqsədi, aparılması prosedurları və sahibkarlar üçün əhəmiyyəti barədə mövzular əhatə edilməklə);***

***15. Auditorlar Palatasının auditin təbliği və təşviqi sahəsində (auditor yoxlamalarının məqsədi və sahibkar üçün faydalılıq baxımından) gördüyü işlərin təkmilləşdirməsi istiqamətində maarifləndirici tədbirlərin həyata keçirilməsi, televiziyada müvafiq verilişlərin təşkil edilməsi və mətbuatda bu sahədə məqalələrin dərc etdirilməsi;***

***16. Televiziyada "Audit saatı" verilişinin təşkil edilməsi;***

***17. Gələcəkdə keçiriləcək sorğuların suallarının anlaşıqlı və aktual olması məqsədi ilə təkmilləşdirilməsi;***

***18. Audit sahəsinə universitet tələbələrinin cəlb edilməsinə dair müvafiq tədbirlərin həyata keçirilməsi.***

Auditor xidmətinin istifadəçiləri tərəfindən verilən təklif və tövsiyələr nəzərə alınmaqla sorğunun nəticələrinin tətbiqinin reallaşdırılması, auditor xidmətləri göstərilərkən yol verilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması və mövcud problemlərin həll edilməsi məqsədilə məsul icraçılar və icra müddətləri müəyyən edilməklə Tədbirlər Planının layihəsi hazırlanmış və Auditorlar Palatası sədrinin 2024-cü il 10 iyul tarixli 1/24 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

Hazırda həmin işlərin icrasına başlanılmış və gələcəkdə də Auditorlar Palatası tərəfindən yuxarıda qeyd olunan sahələr üzrə belə sorğuların aparılması davam etdiriləcəkdir.

# "Azərbaycan Rusiyaya meyvə-tərəvəz ixracını artırmaqda maraqlıdır"

"Azərbaycan tərəfi Rusiyaya meyvə-tərəvəz - alma, şaftalı, pomidor, xurma və sairə məhsulların ixracını artırmaqda maraqlıdır. Qonşu ölkədə şaxtalı havalar fonunda yaranmış çatışmazlığı doldurmaq üçün Rusiya Federasiyasına bütün lazımi həcmləri tədarük etməyə hazırıq. Bununla bağlı heç bir problem yoxdur".

Bu sözləri Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli "Agroexpert"ə eksklüziv müsahibəsində deyib.

Son bir ildə iki ölkə arasında ticarət balansının dəyişməsi tendensiyasından danışan agentliyin rəhbəri qeyd edib ki, hazırda ərzaq malları ticarətinin həcmi artır. RF Federal Gömrük Xidmətinin məlumatına görə, 2024-cü



ilin birinci yarısında Rusiya ilə Azərbaycan arasında kənd təsərrüfatı məhsulları və ərzaq mallarının ticarəti ötən ilin eyni dövrü ilə müqayisədə 678,8 milyon dollardan 705,9 milyon dollara çatıb. Ölkəmizə gətirilən məhsullar arasında yumşaq buğda, qarğıdalı, şəkər, bitki yağı və heyvanlar üçün hazır yem məhsulları üstünlük təşkil edib. Azərbaycan isə Rusiyaya pomidor, kartof, xurma, alma və yumurta ixrac edir.

Qoşqar Təhməzli əlavə edib ki, konkret mal partiyasının keyfiyyəti ilə bağlı suallar yaranarsa, tərəflər onları operativ şəkildə həll edirlər.

Sədrin sözlərinə görə, Azərbaycanda yüksək riskli məhsulları olan müəssisələrin qeydiyyatının daha fəal aparılması planlaşdırılır. Bu, yumurta və yağ kimi məhsulların ixracını artırmağa kömək edəcək.

Agentlik rəhbəri onu da bildirib ki, Bakı və Moskva Rusiyanın baytarlıq preparatlarının Azərbaycanda istehsalının təşkili imkanlarını nəzərdən keçirə bilər.

# Son iki il ərzində Misirdən Azərbaycana gələn turistlərin sayı iki dəfə artıb

"Misirlə Azərbaycan arasında güclü diplomatik münasibətlər mövcuddur. Bu il biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 32-ci ildönümünü qeyd edirik. Bu dövr ərzində əlaqələrimizin möhkəmləndirilməsinə imkan verən 49 ikitərəfli sənəd imzalanıb. İkitərəfli iqtisadi əlaqələrdə artım tendensiyaları müşahidə olunur. Ticarət dövriyyəmiz 2024-cü ilin 6 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə artıb. Azərbaycan və Misir arasında Hökumətlərarası




Müştərək Komissiyanın növbəti iclasını bu ilin sonuna kimi Misirdə keçirməyi planlaşdırırıq. Ölkəmiz arasında nəqliyyat və logistika üzrə böyük potensial var".

Bu fikirləri rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Misirin milli bayramı - İyul İnqilabının 72-ci ildönümü münasibətilə keçirilən tədbirdə söyləyib. Nazir bildirib ki, Misirdən Mərkəzi Asiya ölkələrinə, Çinə, eləcə də əks istiqamətdə yüklərin Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə daşınması imkanı genişdir və bu istiqamətdə müzakirələr aparılır.

Son iki il ərzində Misirdən Azərbaycana gələn turistlərin sayı iki dəfə, ölkəmizdən Misirə səfər edənlərin sayı isə üç dəfəyə yaxın artıb.

# Ağdam Sənaye Parkına daha bir rezident qatılıb



"Qarabağ Aqro 44" MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, müəssisədə sucuq istehsalı həyata keçiriləcək.

İnvestisiya dəyəri 1,4 milyon manat olan müəssisədə 20 nəfər işlə təmin ediləcək. İstehsal olunan məhsulların daxili bazara satılması ilə yanaşı, ixracı da nəzərdə tutulur.

# QHT layihənin icrasına başlamışdır

Artıq bir aydan çoxdur ki, "Gənclik və maarifçilik" İctimai Birliyi tərəfindən "Qarabağın biomüxtəlifliyi" adlı layihə icra olunmaqdadır. Bu layihə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2023-cü il kiçik qrant müsabiqəsinin qaliblərindən biridir.

Layihənin ideyası 30 ilə qədər işğal altında qalmış müqəddəs torpaqlarımızın bioloji müxtəlifliyi haqqında mövcud bilikləri bir yerə toplamaq, eyni zamanda Qarabağın ekosisteminə, biomüxtəlifliyinə qarşı Ermənistan tərəfindən törədilmiş ekosidə dair alimlərin araşdırmaları və baxışları əsasında Azərbaycan və ingilis dillərində kitabın hazırlanması və nəşrindən, erməni faşizminin növbəti dəfə iç üzünün açılmasına, regionun təbii ehtiyatlarının təbliğinə və bərpası üzrə fəaliyyətlərə informasiya dəstəyi göstərilməsindən ibarətdir.

Layihənin iş planına uyğun olaraq artıq müəyyən işlər görülmüşdür, müxtəlif dövrlərdə yazılmış və çoxsaylı mənbələrdə dərc edilmiş məqalə, konfrans materialları, monoqrafiya və kitablar, eləcə də müsahibələr toplanmış, oxunaraq qeydlər aparılmışdır. İctimai birliyin rəhbəri və üzvləri toplanmış informasiya üzərində işləmiş və təhlillər aparmışlar. Yazılacaq kitabın kontentinin və mündəricatının müəyyənləşdirilməsi üçün alimlərlə məsləhətləşmələr aparılmışdır.

Layihə üzrə fəaliyyətlər davam etdirilir.

# Mobil telefon radiasiyasının həyat və sağlamlıq üzərindəki təsiri və SAR dəyəri

*(əvvəli ötən sayımızda)*

**Əlaqədar qurumların adları və bildirdikləri**

ACS-nin (The American Cancer Society - Amerika Xərçəng Cəmiyyəti) mobil telefonlardan, mobil telefon qüllələrindən və ya digər mənbələrdən radiotezlik radiasiyasının xərçəngə səbəb olub-olması ilə bağlı heç bir rəsmi mövqeyi və ya bəyanatı yoxdur.

WHO-nun (World Health Organization - Ümumdünya Səhiyyə Təşkilatı) bir hissəsi olan IARC (International Agency for Research on Cancer - Beynəlxalq Xərçəng Araşdırmaları Agentliyi), NTP (US National Toxicology Program - ABŞ Milli Toksikologiya Proqramı) proqramı, NIH (National Institutes of Health - Milli Sağlamlıq İnstitutu), CDC (Centers for Disease Control and Prevention - Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzi) və FDA (Food and Drug Administration - Qida və Dərman İdarəsi) daxil olmaqla, bir neçə müxtəlif dövlət qurumlardan yaradılmışdır.

ABŞ Ərzaq və Dərman İdarəsi (FDA) 2008-2018-ci illər arasında dərc edilmiş araşdırmalara, eləcə də xərçəng nisbətlərindəki milli tendensiyalara əsaslanan texniki hesabat verdi. Hesabatda əsasən qeyd edildi ki, ***"radiotezlik radiasiyasına məruz qalma ilə şiş əmələ gəlməsi arasında əlaqəni dəstəkləmək üçün kifayət qədər dəlil yoxdur."***

**ABŞ Federal Rabitə Komissiyasına (FCC) görə:**

Hazırda heç bir elmi sübut simsiz cihazdan istifadə ilə xərçəng və ya digər xəstəliklər arasında əlaqəni göstərmir.

**ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinə (CDC) görə:**

***"Hazırda sağlamlıq problemlərini mobil telefon istifadəsi ilə əlaqələndirmək üçün elmi əsas yoxdur. Mobil telefondan istifadənin sağlamlığa təsir edib-etmədiyini müəyyən etmək üçün, elmi araşdırmalar davam edir".***

**5G şəbəkələri barədə**

Beşinci nəsil (5G) mobil şəbəkələri hazırda bir çox ölkələrdə tətbiq olunur. 5G şəbəkələri əvvəlki nəsillərə (4G, 3G və s.) nisbətən daha qısa müddət ərzində daha böyük həcmdə məlumat ötürməyə qadirdir.

5G şəbəkələri (və onlardan istifadə edən telefonlar) köhnə nəsil şəbəkələrə nisbətən daha yüksək tezlikli (daha yüksək enerji) radiotezlikdə işləyir (baxmayaraq ki, daha yeni telefonlar adətən köhnə şəbəkələrdən də istifadə edə bilər). Lakin daha yeni 5G siqnalları hələ də raditezlik dalğalarından istifadə edir, buna görə də DNT-ni birbaşa zədələmək qabiliyyətinə malik olmayan qeyri-ionlaşdırıcı şüalanma formalarıdır.

Mobil telefondan istifadə ilə xərçəng arasında mümkün əlaqələri araşdırmaq üçün indiyə qədər aparılan tədqiqatlar yaşlı nəsil (əsasən 2G və 3G) siqnallarına yönəlmişdir. Hal-hazırda 5G şəbəkələrində istifadə olunan dalğaların mobil rabitədə istifadə olunan digər dalğa uzunluqlarından daha çox narahatlıq doğurduğunu göstərən çox az araşdırma aparılmışdır.



**Bəhruz Əliyev,**
***İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti***




**Evlərdəki simsiz telefonlar**

Evlərdə tez-tez istifadə olunan simsiz telefonlar telefon prizlərinə qoşulmuş və yerli telefon xidmətinə qoşulmuş əsas qurğulara malikdir. Onlar cib telefonu sayılmır. Simsiz telefonlar cib telefonlarının təxminən 1/600 gücündə işləyir, buna görə də onların sağlamlığa təsiri daha az narahatlıq doğurur.

**Bəs Bluetooth cihazları (qulaqcıqlar daxil olmaqla?)**

İndi bir çox simsiz qurğular Bluetooth texnologiyasından istifadə edərək, daha qısa məsafələrdə əlaqə qurur. Məsələn, indi bir çox telefonda simsiz (Bluetooth) qulaqlıqlardan istifadə etmək imkanı var. Telefonlar həmçinin Bluetooth-dan istifadə edərək, digər cihazlara (planşetlər, noutbuklar, avtomobil idarə panelləri və s.) qoşula bilər.

Bluetooth cihazları mobil telefonlar üçün istifadə olunan, oxşar dalğa uzunluğu diapazonunda olan dalğalardan istifadə edir. Lakin siqnalların qısa bir məsafəni (məsələn, telefondan insanın qulağına qədər) qət etmələri lazım olduğundan, aşağı güc səviyyələrində işləyə bilər ki, bu da nəzəri olaraq, onları sağlamlıq baxımından daha az narahat edir. Lakin radiotezlik dalğaları yayan digər cihazlarda olduğu kimi, bu cihazların da sağlamlıq üçün mümkün təsirləri hazırda tamamilə istisna edilə bilməz.

**SAR dəyərinin təsirlərini azaltmağın üsulları:**

*- Smartfonların yaydığı radiasiyaya mümkün qədər az məruz qalmaq istəyiriksə, mobil telefonlardan istifadəni minimuma endirməliyik. Bunun üçün bəzi məqamlara nəzər salaq;*

*- Telefonda dinamik rejimi və ya video söhbət funksiyasından və ya simli və ya simsiz qulaqlıq kimi cihazdan istifadə edin. Bu, antenanı başınızdan uzaqlaşdırır, bu da başınıza çatan radiotezlik dalğalarının miqdarını azaldır. Simli qulaqlıqlar faktiki olaraq heç bir radiotezlik dalğası yaymır. Bluetooth qulaqlıqları, adətən mobil telefonların özündən daha aşağı güc səviyyələrində radiotezlik dalğalarını ötürür;*

*- Telefonunuzu cibinizdə daşımaq və əlinizdə saxlamağa sərf etdiyiniz vaxtı azalda bilərik. Çantada daşımaq daha məqsədəuyğundur;*

*- Zəng edərkən telefonu qulağınıza yaxın tutmaq əvəzinə dinamiklərdən və ya qulaqlıqlardan istifadə etmək olar;*

*- Əgər yanınızda hər hansı bir stasionar telefon varsa, onu istifadə etmək tövsiyə olunur;*

*- Radiasiyadan tamamilə xilas etməsə də, aşağı SAR reytinqinə malik mobil telefondan istifadə daha az təsirə məruz qalmağınıza səbəb ola bilər;*

*- Wi-Fi və bluetooth kimi kommunikasiya kanallarından istifadə edərkən və ya məlumat endirərkən telefonunuzu bədəndən uzaq tutmaq lazımdır, çünki bu, SAR səviyyəsinin əhəmiyyətli dərəcədə artdığı anlar hesab olunur;*

*- Lazım olmadıqca mobil telefonla məşğul olmamaq;*

*- Telefona yaxın yatmamaq;*

*- Mümkünsə telefonunuzu söndürün və ya təyyarə rejimindən istifadə edin! Bu həm də gördüyümüz işə daha yaxşı diqqət yetirməyə və daha məhsuldar olmağa imkan verəcək.*

# Səfa Mirzəyev



Milli Məclis Aparatının sabiq rəhbəri Səfa Mirzəyev vəfat edib. O, uzunsürən xəstəlikdən sonra dünyasını dəyişib.

Qeyd edək ki, Səfa Mirzəyev 1952-ci il mayın 12-də anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1978–1990-cı illərdə Bakı Dövlət Universitetində müəllim, baş müəllim, dekan müavini və dosent vəzifələrində çalışıb. Hüquq üzrə fəlsəfə doktorudur.

1992-ci ildən Milli Məclis Aparatında işləyib. Ali Sovet Katibliyinin hüquq təminatı və nəzarəti şöbəsinin müdiri, katibliyin rəisi, baş katibi, Milli Məclis Katibliyinin rəhbəri olub.

1997-ci ildən Milli Məclis Aparatının rəhbəri olub. 2012-ci ildə Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə, 11 may 2022-ci ildə Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

***Allah rəhmət eləsin!***

# Mərkəzi Gömrük Hospitalında Açıq qapı günü keçirilib



Mərkəzi Gömrük Hospitalında Kardiologiya şöbəsində Açıq qapı günü keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəisi - baş həkim Bəxtiyar Musayev, Kardiologiya şöbəsinin rəisi Dr.İlqar Tahiroğlu, kardioloqlar - Samir Mustafayev, Şəhla Ağayeva, şöbənin tibb heyəti, PR mütəxəssisi Dilarə Zamanova, media nümayəndələri və həkim-rezidentlər iştirak ediblər.




Tədbirin rəsmi açılış hissəsində Mərkəzi Gömrük Hospitalının rəisi - baş həkim Bəxtiyar Musayev ilk öncə media nümayəndələrini 22 iyul Milli Mətbuat Günü münasibətilə təbrik edib, Mərkəzi Gömrük Hospitalının fəaliyyəti, Kardiologiya şöbəsi barədə, eləcə də Azərbaycanda nadir icra olunan, lakin Mərkəzi Gömrük Hospitalında gündəlik cərrahi əməliyyatlar sırasına daxil olmuş kəsiksiz, qasıqdan girilərək ürəyin klapanı dəyişdirilən TAVİ və digər əməliyyatlar barədə ətraflı məlumat verib. Baş həkim Bəxtiyar Musayev bildirib ki, bir neçə il əvvəl insanlara fantastik kimi görünən bu və digər əməliyyatlar hazırda Mərkəzi Gömrük Hospitalında ödənişsiz, İcbari Tibbi Sığortanın Xidmətlər Zərfi çərçivəsində icra olunur.

Prezident İlham Əliyevin milli səhiyyənin inkişafına böyük diqqət və önəm verdiyini vurğulayan Bəxtiyar Musayev bu sahənin modernləşdirilməsi, insan kapitalının inkişaf etdirilməsi və səhiyyə iqtisadiyyatının gücləndirilməsinin dövlətimiz üçün prioritet məsələlərdən biri olduğunu qeyd edib. Bəxtiyar Musayev bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də dövlət siyasətini dəstəkləyən Dövlət Gömrük Komitəsinin ayrılmaz bir hissəsi olan Hospitalın davamlı şəkildə yenidənqurma işlərini apardığını, modernizasiya prinsipini əsas tutaraq müasir texnologiyaların istifadəsi ilə yeni tibbi xidmətlər tətbiq etdiyini və peşəkar kadrlar yetişdirdiyini qonaqların diqqətinə çatdırıb.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət idarəsinin rəis müavini İsmayıl Əfəndiyev Mərkəzi Gömrük Hospitalının təşkilatçılığı ilə mütəmadi olaraq respublikanın bir çox regionlarında keçirilən tibbi-sosial aksiyalar, eləcə də Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət idarəsinin əməkdaşlıqla bağlı imzaldığı memorandumlar, memorandumlara əsasən həyata keçirilən tədbirlər barədə geniş danışıb.

Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin rəisi, invaziv kardioloq İlqar Tahiroğlu Kardiologiya şöbəsinin fəaliyyətindən danışaraq, burada hazırda qonşu ölkələrdə hələ də tətbiq olunmayan İcbari Tibbi Sığortanın Xidmətlər Zərfi çərçivəsində icra olunan TAVİ, EVAR, TEVAR və digər əməliyyatlar barədə ətraflı məlumat verib. İlqar Tahiroğlu qeyd edib ki, Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin kardioloqları tərəfindən 24 saat ərzində invaziv və qeyri-invaziv əməliyyatlar uğurla icra edilir. O, kardioloji və digər mürəkkəb əməliyyatların da icrasının Xidmətlər Zərfi çərçivəsində xəstələr üçün əlçatanlığının təmin edilməsinə görə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə, Səhiyyə Nazirliyinə, TƏBİB-ə və İcbari Tibbi Sığorta şirkətinə öz minnətdarlığını bildirib.

Daha sonra Dr.İlqar Tahiroğlu tədbir iştirakçılarını Kardiologiya şöbəsinin müayinə otaqları ilə tanış edib. Tədbir iştirakçıları Anju otağında 84 yaşlı pasiyentin üzərində icra edilən TAVİ əməliyyatını canlı olaraq izləyiblər. Hospitalın kardiologiya şöbəsində keçirilən Açıq qapı gününün məqsədi media nümayəndələrinə, həkim rezidentlərə bu tibb müəssisəsinin fəaliyyəti, həkimlərin həyata keçirdiyi prosedurlar, müalicə üsulları, onların icra etdikləri cərrahi əməliyyatlar haqqında məlumat verməklə yanaşı, onlarla daha yaxından ünsiyyət qurmaq imkanıdır.

Tədbir kollektiv xatirə şəklinin çəkilməsi ilə başa çatıb.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "Bakcell" Aİ dəstəkli "Tarif Məsləhətçisi"ni təqdim etdi

Ölkənin ən böyük özəl mobil operatoru "Bakcell" tətbiqində yeni süni intellekt (AI) dəstəkli "Tarif Məsləhətçisi" funksiyasını istifadəyə verib. Bu innovativ alət, abunəçilərin zəng və internet ehtiyaclarını nəzərə alaraq onlara ən uyğun tarif planlarını tövsiyə edir.




Son aylarda innovativ məhsulları ilə abunəçi təcrübəsini və məmnuniyyətini daha da artıran "Bakcell", "Tarif Məsləhətçisi" funksiyasında qabaqcıl AI texnologiyasından istifadə edir.

Abunəçilər alətdən istifadə etməklə öz tarif planlarını optimallaşdıra, həm vaxt, həm də büdcələrinə qənaət edə biləcəklər.

"Tarif Məsləhətçisi" aləti hazırda "Bakcell" tətbiqində aktivdir. Tətbiqi bu linkdən yükləmək mümkündür: https://onelink.to/bakcell

Bu yaxınlarda yeni brend kimliyini təqdim edən "Bakcell", abunəçilərinin gündəlik tələbatlarını ödəmək üçün daim yeni məhsullar təqdim edir. Belə ki, son həftələrdə "Bakcell" "Fiber 1" məhsulunu və "VoWiFi" texnologiyasını istifadəçilərin ixtiyarına verib.

# "Bakcell"dən eksklüziv təkliflə smartfon al

İnnovativ məhsul və xidmətləri ilə hər zaman öndə olan "Bakcell"dən smartfonunu yeniləmək istəyən abunəçilərə şad xəbər! "Bakcell" mağazalarından hissəli ödənişlə smartfon alan abunəçilərə 18 ay müddətində xüsusi seçilmiş tariflərdən biri hədiyyə olunacaq.




Kampaniya çərçivəsində smartfon alan abunəçilərə hər ay 350 dəqiqə ölkədaxili zənglər, 5GB internet, pulsuz "WhatsApp" və "Telegram" mesajları daxil olan tarif paketi ödənişsiz təqdim ediləcək. Bundan əlavə, alınan smartfonun modelinə uyğun olaraq, abunəçilərə digər tariflər də təklif oluna bilər.

Yalnız rəsmi "Bakcell" mağazalarında keçərli olan bu təkliflə bağlı ətraflı məlumatı "Bakcell" mağazalarından və ya http://www.bakcell.com saytından əldə etmək mümkündür. Qeyd edək ki, Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərin ixtiyarına verəcək.

**ALLAH RƏHMƏT ELƏSİN**

Akademik Ziyad Səmədzadə Milli Məclis Aparatının sabiq rəhbəri
**SƏFA MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500